# “Azərbaycan dili” dərslərində dil qaydaları məzmun xətti üzrə işin təşkili

**Fidan Xaliq qızı Tanırverdiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** Fidan.tanırverdiyeva@mail.ru|

**Rəyçilər:** filol.ü.f.d., dos. N.S. Novruzova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** ana dili dərslikləri, məzmun xətti, metodik vəsait, elmilik, müvafiqlik, oxu məzmun xətti, yazı məzmun xətti, dinləmə məzmun xətti, nitqin inkişafının zənginləşdirilməsi və müvafiqlik prinsipinin gözlənilməsi

**Ключевые слова:** учебники на родном языке, строка содержания, методические пособия, научная, актуальность, строка содержания чтения, строка содержания письма, линия содержания слушания, обогащение развития речи и ожидание принципа актуальности

**Key words:** mother tongue textbooks, content line, methodical aids, scientific, relevance, reading content line, written content line, listening content line, enrichment of speech development and expectation of the principle of relevance

Ana dili məzmun xəttinim prinsipləri:
1. Elmilik.
2. Millilik.
3. Müvafiqlik.
4. Varislik və sistematiklik.
5. Fəndaxili və fənlərarası əlaqə prinsipi.
6. İnkişafetdiricilik.
7. Tərbiyələndiricilik.
8. Həyatla əlaqə.
9. Nitq inkişafını zənginləşdirmək prinsipi.

Proqramlaşdırmadan məqsəd ana dilinə aid sahələr üzrə sistematik təlim verməkdir.

## Məzmun standartlarının şərhi və reallaşma mexanizmləri

İbtidai siniflərin müəllim üçün metodik vəsaitində (MMV) verilən hər bir bölmənin əvvəlində cədvəldə mövzular üzrə reallaşdırılan məzmun standartları öz əksini tapır. Oxu, yazı və dil qaydaları üzrə elə məzmun standartları var ki, bütün hərflər tanıdılana qədər onların reallaşdırılması qeyri-mümkündür. Ona görə də ilk bölmələrdə bəzi məzmun standartlarına yer verilməməsini təbii qəbul etmək lazımdır. Aşağıda hər bir məzmun standartının mahiyyəti şərh olunur və alt standartların tədris prosesində reallaşdırılması yolları açıqlanır.

Bu təlim məqsədləri (gözlənilən şagird nailiyyəti) məzmun standartlarına doğru aparan addımlardır. Onların əksəriyyəti dərs nümunələrində öz əksini tapır.Vəsaitdə şərh olunan hər bir dərs bir neçə alt standartın reallaşdırılmasına xidmət edir.

**Dinləmə.** Dinləmə şifahi nitqin qavranılması, beyində mənalandırılmasıdır. Məktəbə gələnə qədər şagirddə fiziki vərdiş şəklin də mövcud olan bu bacarıq dərs şəraitində sistemli şəkil-

də inkişaf etdirilir. Hərflərin təlimi nə qədər vətəlimi prosesində istənilən sözlü məlumat uşaqlara, əsasən, şifahi nitq yolu ilə çatdırılır, odur ki, 1-ci sinif şagirdində dinləmə bacarığının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Buna vaxtaşırı dinləmə mətnləri üzrə iş aparmaqla nail olmaq mümkündür. Bu zaman müəllim bəzi məqamları nəzərə almalıdır:

 Mətni səsləndirən müəllim elə yerdə dayanmalıdır ki, bütün uşaqlar onu görə bilsinlər.

 Mətn aramla və intonasiya ilə oxunmalıdır. Natiqin səsi sinfin hər bir guşəsində eşidilməlidir.

 Mətn çox uzun olmamalı, ən çoxu 2 dəqiqədən bir fasilə verilməlidir.

 Fasilələrdə verilən suallar uşaqların diqqətini mətn üzərində cəmləməli, onları mətnin davamına daha diqqətlə qulaq asmağa stimullaşdırmalıdır.

 Şagirdlər hər an mətn üzrə sual verməyə həvəsləndirilməlidirlər.

**Oxu.** Məktəbdə təhsil almağa başlayan şagirdlərin çoxu müəyyən qədər dinləmə və danışma bacarıqlarına malik olsa da, hərfləri tanımır və əlbəttə ki, oxuya və yaza bilmir. Cümlənin sözlərdən, sözün səslərdən ibarət olması haqqında uşağın təsəvvürü olmur.

1-ci sinifdə "Oxu" məzmun xəttinin inkişafını üç mərhələyə bölmək olar: 1) hərf təliminə hazırlıq, 2) hərf təlimi və oxu texnikasına yiyələnmə, 3) oxu texnikasının inkişafı və şüurlu oxu.

İlk gündən şagirdlərə kitabla davranış qaydaları aşılanmalıdır. Şagird:

 Kitab oxuyarkən partada düzgün oturmalı, belini əyməməlidir.

 Kitabı tutarkən, onu açarkən və səhifələyərkən ehtiyatlı davranmalıdır.

 Kitabla göz arasındakı məsafə 25-30 sm olmalıdır. Hərf təliminə hazırlıq mərhələsində şagirdlər səs və hecalarla sxemlər vasitəsilə tanış olurlar. Azərbaycan dilində hər hərf bir səsi işarə edir. (Yalnız "k" hərfi iki səsi ifadə edir). Bu, eşidilən səslə onun yazıda işarəsinin-hərfin eyniləşdirilməsi prosesini asanlaşdırır. Ona görə də hərflərin tanıdılmasına səslərin tanıdılmasından başlamaq daha məqsədəuyğundur. Bu prosesi bir neçə mərhələyə bölmək olar:

1. Söz şəkil vasitəsilə tanıdılır.
2. Sözdəki səslər ayrılıqda tələffüz edilir. Səslər yazıda kvadratla işarə olunur.
3. Şagirdlər sözlərdə səslərin sayını, təkrarlanan eyni səsləri ayırd edirlər.
4. Söz hecalara bölünərək tələffüz olunur. Hecalar yazıda düzbucaqla işarə olunur.
5. Şagirdlər sözlərdə hecaların sayını, müxtəlif sözlərdə eyni hecaları tapırlar. "Bir hərf-bir səs" fonetik sistemi bu metodikanın tətbiqinə imkan yaradır. Bu sxemlərdən hərf təlimi mərhələsində də istifadə olunur.

**Yazı.** Əlinə yeni qələm alan uşaqlar, adətən, bir qədər sağa əyilmiş cizgilər çəkirlər. Pedaqoqlar uşaqların bu təbii (fizioloji) vərdişlərinə əks getməmək üçün 1-ci sinif üçün dərsliklərdə əl yazısı şəklində olan hərfləri soldan sağa əyilmiş şəkildə verməyi məsləhət görürlər. İbtidai siniflər üçün yazı dəftərlərində də düz üfüqi xətləri müəyyən bucaq altında kəsən maili xətlər verilir ki, bu, yazı vərdişlərinə yeni alışan uşaqların işini asanlaşdırmaq məqsədi güdür. Hərf təliminə qədərki dövrdə şagirdlər sadədən mürəkkəbə doğru müxtəlif cizgi çalışmaları icra edirlər ki, bu da onların əlini qələmə alışdırmaq və yazı vərdişi yaratmaq məqsədi daşıyır. Dərslikdə bu cür cizgilərin nümunələri verilir. Müəllim yazı taxtasında cizgi çalışmalarını icra etməklə əlin yuxarı və aşağı, sağa və sola hərəkətini nümayiş etdirməlidir. İlk məşğələlərdən başlayaraq, şagirdlərə partada oturmaq, dəftəri qoymaq, qələmi tutmaq qaydaları öyrədilməlidir. Şagird yazarkən bədəni çox qabağa əyməməli, sinəni partaya dirəməməlidir. Əllər partanın üstündə olmalı, sağ qolun dirsəyi partadan azca kənara çıxmalı, baş azca aşağı əyilməli, dəftərlə göz arasında təxminən 25-30 sm. məsafə saxlanmalıdır.

**Məqalənin aktuallığı.** Orta ümumtəhsil məktəblərində ana dilinin tədrisi prosesində mək-

təblilərə leksik, fonetik, eləcə də qrammatik xüsusiyyətlərin izah edilməsi və bacarıqlarının aşılanması baxımından məqalənin aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə şagirdlərin dinləyib anlama, danışma, oxu və yazı bacarıqlarının formalaşdırılması məqsədilə onların nitqini inkişaf etdirmək sahəsində vəzifələr müəyyənləşdirilir, ən zəruri vərdişlərin qazanılması baxımından əsas istiqamətlər nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum, 2008, №1.
2. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, 2008. 223 s.
3. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün ana dili kurikulumu (I-IV siniflər). Bakı, 2007.
4. Y.Ş. Kərimov. Ana dilinin tədrisi metodikası, Bakı, 2003.

**F.X. Танривердиева**

## Организация работы над содержательной линейкой языковых правил на уроках «Азербайджанский язык»

### Резюме

Лингвистические правила - это инструмент, помогающий развить речевые навыки. В то же время лингвистика - наука развивающаяся, и, как и другие науки, ее основы следует преподавать в старших классах. Лингвистические правила не следует запоминать изолированно от реальной речи, их следует усвоить, чтобы применять в устной и письменной речи в соответствующих ситуациях.

**F.X. Tanriverdieva**

## Organization of work on the content line of language rules in "Azerbaijani language" lessons

### Summary

Linguistic rules are a tool to help develop speech skills. At the same time, linguistics is an evolving science, and like other sciences, its basics must be taught in high school. Linguistic rules should not be memorized in isolation from real speech, but should be learned to apply in oral and written speech in appropriate situations.

**Redaksiyaya daxil olub:** 24.03.2021